# Üzeyir bəy Hacıbəylinin Azərbaycan publisistikası tarixində rolu

**Aytən Rüstəmzadə**
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
**E-mail:** ayten_rustamzade@mail.ru

**Rəyçilər:** filol.ü.f.d, dos. G. Qarayeva,
filol.ü.f.d, dos. S. Quliyeva

**Açar sözlər:** Ü.Hacıbəyli, felyeton, vətənpərvərlik, gülüş, satira
**Ключевые слова:** У.Гаджибейли, фельетон, патриотизм, смех, сатира
**Key words:** U.Hadjibeyli, feuilleton, patriotic, laugh, satire

Dünya şöhrətli bəstəkarımız, korifey sənətkar Üzeyir bəy Hacıbəyli eyni zamanda Azərbaycan jurnalistikası tarixində də silinməz bir iz qoymuşdur. Qeyd etmək lazımdır ki, Üzeyir bəy bəstəkar kimi tanınmazdan da əvvəl jurnalist, publisist kimi tanınmışdır. Bildiyimiz kimi, publisistika ən aktual, ən canlı janrdır. Zamanın, əsrin, xalq həyatının bu günkü vəziyyətini əks etdirmək və irəli sürdüyü vacib suallara cavab vermək publisistikanın əsas vəzifəsidir.

Böyük problemləri əks etdirən, çox vacib suallara cavab verən, özü də doğru cavab verən publisistik əsərlər əhəmiyyətli, qiymətli sayılır. Üzeyir bəyin publisistik əsərləri məhz bu cür əsərlərdəndir. İctimai ziddiyyətlərin kəskinləşdiyi və inqilabi mübarizələrin son dərəcə qızışdığı bir dövrdə Üzeyir bəy özünün əsas publisistik əsərlərini yazmışdır. Onların böyük əksəriyyəti ideya-fikri istiqaməti etibarı ilə inqilabi-demokratik səciyyədə olmuşdur. Ü. Hacıbəyli Molla Nəsrəddin", "İrşad", "Həyat", "Tərəqqi", "İqbal", "Həqiqət" və s. qəzet və jurnallarda çap etdirdiyi saysız-hesabsız publisistik yazılarda Azərbaycan xalqının həyatının, mübarizəsinin, təfəkkürünün ən müxtəlif sahələrini və problemlərini işıqlandırır.

Ü. Hacıbəyli öz tərbiyəsi, idealları, zövqü etibarilə xalqa bağlı idi. Xalqın həyatı, ruhu, mənəviyyatı, tarixi və mədəniyyəti ilə dərindən tanış olan böyük sənətkar xalqın problemlərini və ehtiyaclarını bütün qəlbi ilə duyurdu. Şübhəsiz ki, bu keyfiyyətlərin yaranmasında publisistikanın rolu böyük olmuşdur. Onun xalq həyatı və mübarizəsi, xalqın gündəlik ehtiyacları ilə daha artıq bağlanmasına, inqilabi-demokratik görüşlərinin möhkəmlənməsinə kömək etmişdir. Publisistika ən çox "Arşın mal alan", "Məşədi İbad", "Ər və arvad" əsərlərindəki satirik surətlərin yaranmasında böyük bir hazırlıq məktəbi olmuşdur. "Kaspi", "İrşad", "Tərəqqi", "Hidayət" jurnallarında dərc olunan məqalələri, felyetonları ilə Üzeyir Hacıbəylinin "Molla Nəsrəddin" jurnalındakı fəaliyyəti barədə xüsusi danışmaq lazımdır.

O dövrdə baş verən əhəmiyyətli siyasi-ictimai hadisələrin hamısı Ü.Hacıbəylinin odlu–alovlu publisistikasında öz əksini tapmışdır. Onun diqqət mərkəzindən kənarda heç bir vacib məsələ qalmamışdır. Cəsarətlə demək olar ki, Üzeyir Hacıbəyli "Molla Nəsrəddin" ədəbi məktəbinin davamçısıdır, özü də "Molla Nəsrəddin"in özündə formalaşmış davamçısıdır. Ü.Hacıbəylinin çoxsaylı siyasi felyetonlarında Cəlil Məmmədquluzadə ruhu güclüdür. Cəlil Məmmədquluzadə və Üzeyir Hacıbəyli arasında mənəvi yaxınlıq hər yerdə qabarıq şəkildə nəzərə çarpır.

O zamanlar Ü.Hacıbəylinin felyetonlarını kəskin tənqid edənlər, qəbul edə bilməyənlər də var idi. Əleyhdarlarından biri demişdi ki: "Üzeyirin yazılarından bir ayrı cür qoxy gəlir. Üzeyir bəy ona Cəlil Məmmədquluzadə ruhunda cavab vermişdi: "Əfəndim, xahiş edirəm ki, bundan sonra mənim yazılarımı qoxulamayasınız ".

Ancaq bu yaxınlıq o demək deyil ki, Ü.Hacıbəyovun gülüşü eynilə Cəlil Məmmədquluzadənin gülüşüdür. Yaxınlıq – eyniyyət, təkrar demək deyildir. Ü.Hacıbəylinin gülmək qabiliyyəti özünəməxsusdur — məhz Üzeyir gülüşüdür.

Ü.Hacıbəyovun zəngin irsində dövri mətbuat səhifələrində "Ordan–burdan" ümumi başlığı altında dərc edilən yazılar xüsusi yer tutur. "Bazar söhbəti", "Məzhəkə", "Təhsil" satirik hekayələri, "Rəfiqimdən məktub", "Üçüncü dəllək", "Məclisimizin duzu", "O, heç!", "Tərəqqi və gerilik", "Ha fikir edirəm, başa düşmürəm!" kimi felyetonları yüksək bədii dəyərə malik əsərlərdir. Həyat materialı ilə satirik formanın sintezindən yaranan bədii keyfiyyət bu əsərlərin mahiyyətini təşkil edir.

"Ordan–burdan" adı altında gedən əsərlərin bir çoxu əlamət və keyfiyyətinə görə ən gözəl nümunələr sayıla bilər. "Molla Nəsrəddin" əsəri (1907-ci ildə "İrşad" qəzetində dərc edilmişdir) pamfletin ən gözəl nümunələrindən biridir. Açıq tendensiya, kəskin satira, yüksək bədii keyfiyyət ilə bərabər, publisist üslubun nisbi üstünlüyü, müqəddiməsiz başlanğıc Ü.Hacıbəylinin pamfletlərini felyetonlarından fərqləndirir. Pamfletlərin bədii keyfiyyətləri sırasında müqayisə üsulu xüsusilə diqqət cəlb edir. Paralellər bir tərəfdən pamfletin mənimsənilməsini asanlaşdırırsa, digər tərəfdən publisist və bədii üslubun nisbətini tarazlayır. Kinayə, işarə və eyhamlar isə həmin əsərlərə bir şirinlik gətirir, onların kəsərini artırır.

Tənqid hədəfinin seçilməsi, tənqid atəşinin sərrastlığı, dilin şirinliyi ilə bu pamfletlər içərisində "Dayaq" əsəri mühüm yer tutur. Hadisələrə gizli saxlanılmayan münasibət, ictimai eyiblərə nümayişkaranə etiraz bu əsər üçün səciyyəvidir. XX əsrin əvvəllərində yazılmış "Dayaq" pamfleti Ü.Hacıbəylinin yaradıcılığındakı mübarizliyə, əqidə sahəsində müəllifin heç kəslə kompromissə getmədiyinə yaxşı nümunədir. Müəllif şəhər Dumasının fərsiz deputatlarını nümayişkaranə açıqlıqla onların üzlərinə vurur, fəaliyyətsiz deputatları barsız ağaclara bənzədir.

Ü.Hacıbəyli publisistikasını səciyyələndirən əsas cəhət ideyalılıqdır. Vaxtilə klassiklərin dediyi kimi, sənətkar və alim üçün, publisist və felyetonçu üçün ideya hər şeydən vacibdir.

Ü.Hacıbəyli sənət aləmində prinsipsizliyi qətiyyətlə pisləyirdi. O, yazıçı, jurnalist və musiqi xadimi olmaqdan daha artıq biz vətəndaşdır, sənətin hansı sahəsinə xidmət etməsindən asılı olmayaraq, işə hər şeydən əvvəl, bir vətəndaş kimi yanaşır, özü–özündən hesabat tələb edirdi: nəyin xatirinə yaradırsan, nə məqsədlə yazırsan? Üzeyir Hacıbəyli sənətinin bünövrə daşı, fəaliyyətinin əzəli, əbədi qayəsi olan bu məqsəd xalqa xidmətdən, xalqın azadlığı uğrunda mübarizədən ibarətdir.

Bakının neft mədənlərindən azadlıq şüarları ölkəyə yayılanda Ü.Hacıbəyli də hamının eşidəcəyi aydın səslə deyirdi: "Batsın istibdad, yaşasın hürriyyət!"

Ü.Hacıbəyli ictimai həyatda həmişə təzə hadisə axtarır və hər şeydən əvvəl, həmin yeniliyin təşəkkül tapma prosesinə qızğın maraq göstərirdi. Digər tərəfdən ustalıqla söz axtarır və sözlərin ən münasibini tapırdı.

"Mənə yazılan xəbərlərə görə, aclar toxların əhvalından xəbərdar olub, öz aralarında bir milyondan artıq lənət və söyüş ianəsi yığıb göndəriblər ki, toxlar içində müstəhəqq olanlara paylansın".

Gördüyümüz kimi, bircə miniatürdür, ancaq həcmi, tutumu olduqca böyükdür!

Gülüş onun yaradıcılığının ən mühüm xüsusiyyətlərindən biri idi.

Ü.Hacıbəyli şit gülüşü sevmirdi. Onun gülüşü mənalı və öldürücü idi. O, ürəkdən, ucadan gülürdü, həyatın eybəcərlikləri haqqında qəzəblə yazırdı. Özünün də qeyd etdiyi kimi, yalnız güldürməyə diqqət vermir, düşündürməyə də çalışırdı.

O, hər şeydən əvvəl, xalq satirasından, eləcə də Azərbaycan klassik yazılı ədəbiyyatından bəhrələnmişdir, mənəvi qida almışdır.

Geniş xalq kütlələrinin canlı danışıq dili Ü.Hacıbəyli yaradıcılığının başlıca qlda mənbəyi, əsas üslub xətti olmuşdur.

Ü.Hacıbəylinin qaravəlli və satirik miniatürlərinin də xüsusi qeyd etmək lazımdır. "Dövlət Duması", "Ata və oğul" və s. əsərləri görkəmli komediya ustasının sonrakı səhnə əsərlərinə sanki bir müqəddimədir.

Üzeyir bəyin "Azərbaycan" qəzetindəki fəaliyyəti xüsusilə diqqət cəlb edir, bu günün özündə də aktuallığın saxlayır.

"Azərbaycan" qəzetində yazdığı məqalə və felyetonlarda Ü.Hacıbəyli yeni qurulmuş Azərbaycan Cümhuriyyətinin maarif, milli təhsil məsələlərindən, mədəniyyətindən, ictimai–siyasi həyatdan, parlamentin iclaslarından, dövlətin daxili və xarici siyasətindən, Qarabağ hadisələrindən, içimizdəki düşmənlərdən, bolşeviklər hökumətinin qəddarlığından, saxtakarlığından dönə-dönə yazmış, xalqı ayıq-sayıq olmağa çağırmışdır.

Üzeyir bəy məqalələrində dilimizin təmizliyi, saflığı, zənginliyi, qrammatik quruluşu məsələlərinə çox yer verirdi, haqlı olaraq vacib bir cəhəti vurğulayırdı ki, ana dilimizə əhəmiyyət verməsək, dilimiz itib batar, yox olar, bu halda millətin özü də yox olar.

Qarabağ məsələsi Üzeyir bəyin həmişə diqqət mərkəzində olmuşdur. "Eyni müamilə gözləyirik", "Nə istəyirlər", "Naxçıvan və Qarabağ", "Qarabağ hadisatı", "Səmimiyyət lazım", "Ermənistan və Azərbaycan münasibəti" və s. məqalələri bu mövzuya həsr edilmişdir. Üzeyir bəy sərraf gözü, iti, uzaqgörən ağlı ilə hadisələri analiz edir, çıxış yollarını göstərirdi. Məsələn, "Eyni müamilə gözləyirik" məqaləsində Ü.Hacıbəyli yazırdı: "Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməklə olduğu inad artıq həyasızlıq dərəcəsinə varmışdır." Sonra böyük analitik yazırdı: "Əlbəttə, əgər ingilislər bu cürə işlərə əvvəldən qarışmasaydılar, bu məsələni çoxdan həll etmiş olardıq".

Başımıza gələn bu bəlaların Şimaldan və xaricdən gizli əl tərəfindən törədildiyini Üzeyir bəy cəsarətlə yazırdı: "1918-ci ilin mart hadisələri qabaqcadan düşünülmüş siyasi aksiyadır. Erməni quldurlarının, istər Andranik olsun, istər onu göndərən daşnakların arxasında gizli bir əl vardır". Sonra Üzeyir bəy gizli əlin rus imperiyasının əli olduğunu göstərərək deyirdi ki, bu hadisələr vətəndaş müharibəsi adı ilə azadlıq, istiqlaliyyət mübarizəmizin qarşısını almaq üçündür.

Müstəqil respublika yaratmağımızın əleyhinə elanların, Azərbaycan azad görmək istəməyənlərin hədələri, fitnə-fəsadları görkəmli publisistimiz Üzeyir bəy Hacıbəyli tərəfindən həmişə ifşa edilmişdir, "Azərbaycan" qəzetinin səhifələrində Üzeyir bəy cəsarətlə bunları xalqa bəyan etmiş, onlara qarşı mübarizə aparmışdır. Ü.Hacıbəylinin publisistik irsinə nəzər salarkən, onun nə qədər müasir, xalqına bağlı, vətənini canından çox sevən qeyrətli vətəndaş olduğunu bir daha görürük. Onun Azərbaycan, eləcə də bütünlükdə türk dünyası üçün nələr etdiyi göz qabağındadır.

Həqiqətən də, Üzeyir Hacıbəyli sənətinin bünövrə daşı doğma xalqına xidmətdən, onun azadlığı uğrunda mübarizədən ibarətdir.

Onun əsərlərini mütaliə edən oxucu müəllifin həm məzəli, həm düşündürən hekayə, pamflet və felyetonlarında vətəndaş bir yazıçının, müqəddəs bir məslək sahibinin həmişə xalq səadəti üçün döyünən ürəyinin hərarətini duyur.

Üzeyir Hacıbəyli çoxşaxəli istedada malik olan nadir bir sənətkardır. Onun qələmindən çıxan hər bir əsər bu günün özündə də əhəmiyyətini itirmir. Bu əsərlər Azərbaycan ədəbiyyatı tarixində də, Azərbaycan jurnalistikası tarixində də öz layiqli yerini tutmuşdur.

**Məqalənin aktuallığı.** Ü.Hacıbəylinin publisistik irsinin araşdırılması baxımından məqalə aktualdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə Ü.Hacıbəylinin publisistikası məhz bu günün yeni təfəkkür və yanaşma prizmasından təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən Azərbaycan jurnalistikasının tədqiqatında və Ü.Hacıbəylinin publisistikasının araşdırılmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Abasov A. Üzeyir Hacıbəyovun sənətkarlığı. Bakı: Gənclik, 1976.
2. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, Bakı: Elm, 2004-2007.
3. Bayramoğlu A. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı: Elm, 2003.
4. Qarayev Y. Tarix yaxından və uzaqdan. Bakı: Sabah, 1985.

**А. Рустамзаде**

## Роль Узейир-бека Гаджибейли в истории азербайджанской публицистики
## Резюме

В статье анализируется публицистика одного из корифеев мировой культуры Узейир-бека Гаджибейли. Говорится о его огромном вкладе в азербайджанской публицистике. Подчёркивается глубокий патриотизм великого публициста, народность в его произведениях. Говорится о его статьях, фельетонах и памфлетах, о его деятельности в журнале «Молла Насреддин»,в газете «Азербайджан». Подчёркивается идейность его публицистики. Говорится о том, что Карабахский вопрос, также вопросы чистоты родного языка, свободы отечества занимают значительное место в его публицистике. Подчёркивается актуальность его произведений в наши дни.

**A. Rustamzadeh**

## The role of Uzeyir bey Hacibeyli in Azerbaijani publisizm
## Summary

The article discusses the publicism of one of the leading figures of world culture Uzeyir bey Hadjibeyli. It says about his huge contribution to the Azerbaycan publicism. The deep patriotism of the great publicist, the nationality in his works is underlined. The article talks about his satirical articles, feuilletons and pamphlets about his activity in the magazine "Molla Nasreddin" and "Azerbaijan". The ideology of his journalism is underlined. It is said that the Karabakh issue, also the issues of the purity of the our language, freedom of our motherland occupy a significant place in his publisistik works. The relevance of his works is emphasized in our days.